Hülya Tofiq qızı Ağasıyeva [136]

# “ŞEYX SƏNAN” FACİƏSİNDƏ KAMİL İNSAN PROBLEMİ TƏSƏVVÜF SİSTEMİNDƏ

**Giriş.** Təsəvvüf sistemində insanın kamilləşməsi prosesi böyük filosof şair və dramaturq H.Cavidin yaradıcılığında əsas yer tutur. Onun ilk qələm təcrübələrindən tutmuş şah əsərlərinə qədər demək olar ki, hamısında güclü ürfan işığı mövcuddur. Hüseyn Cavid yaradıcılığını nəzərdən keçirdikdə onun əzəmətli bir dramaturq, filosof və mütəfəkkir olduğunu görürük. O, türkçülük, ürfançılıq, birlik, azadlıq məfkurəsinin daçıyıcısıdır. Hüseyn Cavid öz əsərləri ilə sevgi və gözəlliklə dolu insanlıq möcüzəsi yaratmışdır. Hüseyn Cavidin qəhrəmanları yüksəlmək arzusundadırlar və bu yüksəliş mənəvi təmizlənmə sayəsində olur. Şeyx Sənan, Xəyyam, Peyğəmbər və s. obrazlar bu mənəvi ucalmaqla həqiqətə qovuşurlar. Həqiqətə-haqqa yaxınlaşdıqca din fərqləri azalır. İnsanın mənən təmizlənməsi, ilahi eşq ilə haqqa yüksəlməsi dinlərin bir olması ideyasına gətirib çıxarır. Şübhəsiz ki, bütün yazıçıların insan konsepsiyasının ilk mənbəyi həyatdır. Hər bir dövrün sənətkarı əsərin qəhrəmanını, bununla bərabər insan təsəvvürünü çevrəsindəki həyatdan alır. H.Cavid kamil insanın kimliyini Şeyx Sənan, Peyğəmbər, Xəyyam, Teymur kimi romantik-tarixi obrazlarla əks etdirirdi. Çünki, H.Cavid həyata, tarixə də öz romantik aləminin, təxəyyülünün prizmasından baxırdı. Bu mənada H.Cavidin bütün yaradıcılığını, onun obrazlarını səciyyələndirən mənbə H.Cavidin şəxsiyyətidir.

**Əsas hissə.** Möhkəm əqidə və inam məsələsi H.Cavidin insan anlayışının özüdür. Məhz eşq vasitəsilə insanla xaliq münasibətlərində ruhi-mənəvi yaxınlıq yaranırdı. H.Cavidin ürfan görüşləri onun 1912-ci ildə yazdığı “Şeyx Sənan” faciəsində tarahür edir. Bu əsərdə Nəsimidən, Həllac Mənsurdan, Mövlana Cəlaləddin Rumidən, Fariəddin Əttardan, Füzulidən, Əhməd Yəsəvinin təsəvvüf fəlsəfəsindən gələn fəlsəfi düşüncələrin cizgiləri öz əksini tapıb. Tədqiqatçı A.Turan yazır: “H.Cavid təsəvvüf sisteminin özünün bütün ehtişamı və qeyri-adiliyi ilə dramaturgiyada ilk qələm təcrübələrindən birində və üçüncüsündə yəni 1912-ci ildə “Şeyx Sənan” faciəsində təzahür edirdi” [4, s. 43].

“Şeyx Sənanı faciəsində kamil insan problemini təsəvvüf sistemində daha aydın görmək olar. Burada türkçülük və islamçılıq vəhdətdədir. Belə ki, ədib türkçülük və islamçılığın ədəbi-fəlsəfi baxışlarını başqa əsərlərində olduğu kimi bu əsərində də əks etdirmişdir.

“Şeyx Sənan” ilahi romantik faciədir və onu heç vəchlə sufizmdən ayırmaq olmaz. Belə olduğu təqdirdə əsərin sonluğu öz mənasını itirmiş olar. Sovet dönəmində, ümumiyyətlə, bir mistik fikir cərəyanı kimi sufizmə münasibət ziddiyyətli idi və demək olar ki, əsasən mənfi olmuşdur. H.Cavidin “Şeyx Sənan” faciəsinin sufizmlə tarixi cəhətdən bağlılığı iqrar edilsə də, əsərin müasir ideyasından bəhs edənlər tərəddüd keçirmişlər. Bütün ziddiyyətlərinə baxmayaraq, bu istiqamətdə öz tədqiqatlarında daha cəsarətli fikirlər söyləyənlərdən biri ədəbiyyatşünas Məsud Əlioğlu olmuşdur. O, belə qənaətə gəlir ki, bu romantik faciədə H.Cavid üç mürəkkəb problem üzərində dayanmışdır. Müəllif həmin problemləri belə ifadə edir:

1. Müəllim və müdavim, yaxud müridlikdən mürşidliyə doğru ucalan pillə.
2. İdeal və real gözəllik həyatdır, yaxud realist mütəfəkkir idealist filosofu tərk edir, məhəbbətin qələbəsi.
3. Haqq aşiqi, divanə mütəfəkkir, yaxud yalnızlıq ən müdrik həqiqətdir [5].

H.Cavid “Şeyx Sənan” pyesi vasitəsilə fəlsəfi düşüncələrini açıqlayıb. Bu həqiqət onun sufi-mistik mahiyyətini də inkar etmir. Məsud Əlioğlu bu əsərə öz sufi görüşlərindən çıxış edərək təhlil verir. Məsud Əlioğlunun sufizm anlayışı belədir: “İdeoloji bünövrəsi tarixin qədim dövrlərinə gedib çıxan bu fikri cərəyan – “sufizm yaxud da sufilik insanda dünyəvi hissləri öldürmək və bədənə əzab vermək vasitəsilə mütləq həqiqətə qovuşmağın mümkünlüyünü təbliğ edən qüdrətli və nüfuzlu təriqət kimi məşhurdur” [2, s. 112]. Belə məhdud bir tərifdən sonra Məsud Əlioğlu məşhur alim Bertelsin “mürid mürşidin əlində diri bir meyitdir”, kimi yanlış mülahizəsindən çıxış edərək Şeyx Sənan faciəsinə sufizm nöqteyi-nəzərindən dəyər verir.

Məsud Əlioğlu Şeyx Sənan haqqında belə yazır: “Sənan sufilik məzhəbinə öz xoşu ilə bağlanmışdır: əqlinə, daxili-mənəvi tələbatına uyğun saydığı bu fikri cərəyanı könüllü surətdə qəbul etmişdir. Lakin Şeyx Sənan surətinin təkamülünü izah edərkən müəllif materializm və hadisələrin istiqamətini dəyişdikcə Sənana məlum olur ki, iman gətirdiyi doqmatik təsəvvürlərdən, ehkama çevrilmiş təriqətlərdən fərqli olaraq həyatın daha zəngin və ruhoxşayıcı möcüzələri vardır... könlündə ucaltdığı ruhani eşqə torpaqdan-varlıqdan gələn təbii hissləri qələbə çalır” [2, s. 63].

Məsud Əlioğlunun fikirləri məntiqəuyğun görünmür. Əsərin ikinci pərdəsindən Sanan sufi məslək mütəfəkkir və dini doqmalara sadiq mürşid olaraq mövqeyini tədricən itirir: yerini təbiətin canlı gözəlliklərinə bağlanan coşqun,

---

136 Bakı Dövlət Universiteti, magistrant

həyatsevər aşiqə təslim edir. Sıldırımlı dağlar və yaşıl ormanlarla əhatə olunmuş Qafqaziya-Gürcüstan ərazisi idealist Şeyxi mücərrəd təsəvvürlərdən, hərəkətsiz və məçhul xəyal aləmindən ayırıb yerə endirir [2, s. 63]. Göründüyü kimi, M.Əlioğlunun mülahizələri kifayət qədər ziddiyyətlidir. M.Əlioğlu "Mən fəqət hüsni-xuda şairiyəm, Yerə enməm də səma şairiyəm" deyən Hüseyn Cavidi göylərdən yerə endirir. Bu məqamda görkəmli nəzəriyyəçi, AMEA-nın müxbir üzvü Yaşar Qarayevin məşhur sözləri yada düşür: "... Klassik irsə münasibətdə əyintilər ən çox klassik romantizmə qarşı çevrilmişdir. Realizm bəzən metodun yox, təsvir predmetinin, mövzunun özünün reallığı şəklində təsəvvür edildiyi kimi romantizm də dünyagörüşünün mürtəceliyi ilə bərabərləşdirilirdi. Milli klassik romantizmin zəifliyi haqqındakı belə müddəalarda romantizmin öz ideya-bədii zəifliyindən daha çox, elmi-nəzəri fikrin metodoloji zəifliyi görünürdü. Bu məqalələrdə romantizmə qarşı əsəbi və qəzəbli epitetlər elmi-nəzəri leksikonu əvəz edirdi" [3, s. 20]

Bu niyə belə idi? Bu suala da ən düzgün cavabı elə həmin məşhur kitabında Y. Qarayev cavab verir: "Əlbəttə, bu romantizmə ikinci növə metod kimi baxmaq vərdişindən irəli gəlir, nəticədə romantizm məhz bir romantizm kimi təhlil olunmaq əvəzinə realizmin xüsusiyyətləri baxımından təftiş edilir" [3, s. 30].

Məhz bu tipli nəzəri fikirlər ucbatındandır ki, Məsud Əlioğlu yazır: "Təbiətin səfalı gözəllikləri, bir-birindən əlvan və rəngarəng mənzərələri Sənana şairanə duyğular təlqin etsə də o, tam mənası ilə sufilik məzhəbinin ehkamlarından qurtula bilməmişdir" [2, s.64]. Müəllif az sonra yazır: "Gözəl knyaz qızı Xumar ideal gözəlliyin təcəssümü kimi Şeyx Sənanın qarşısına çıxır və onu birdəfəlik tanıdığı, müqəddəs saydığı inamından, əqidəsindən döndərir" [2, s. 65].

Məsud Əlioğlu Xumarı "ideal eşqin təzahürü" adlandırır. Məsud Əlioğlunun tədqiqatlarından belə ziddiyyətli, daha doğrusu öz-özünə zidd mülahizələri misal gətirmək olar. Mahiyyət isə bundan ibarətdir ki, "Şeyx Sənan faciəsini həm romantizmdən, həm də sufizmdən ayıran kimi o, öz mahiyyətini itirmiş olur". Y.Qarayevin sözləri ilə desək, bu əsəri heç vəchlə realizmin estetik prinsipləri ilə təhlil etmək olmaz. Xəyalda gördüyü Xumarı həyatda tapması bir çox tədqiqatçıları çaşdırır. Bu yerdə Məsud Əlioğlu yazır ki, Sənan bundan sonra mütləq həqiqət eşqdir ideyasının ideoloqu kimi fəaliyyətə başlayır: "Mütləq, ilahi eşqi Xumarın simasında tapdıqdan sonra Sənanın mənəvi-ruhi həyatında üçüncü dövr başlanır – Məcnunluq dövrü" [3, s. 68]. Şeyx Sənanın Xumarı tapmasının onun üçün nə demək olduğunu H.Cavid dəqiq deyir:

İştə mən naili-vüsal oldum,
Aradım nuri-haqq, ta buldum [1, s.199]

Məsud Əlioğlunun əsərin əsas sufi obrazlarından olan Dəli Dərvişlə bağlı mülahizələri diqqətəlayiqdir. Əsərdə Dərvişin dəli adlandırılması fəal idrakın axtarıcısı və real əqlin donuq təfəkkürlərə, passiv və məhdud fikirlərə üstün gəlməsi prosesi kimi mənalandırılmışdı.

Dəlilik başqa bir fəzilətdir,
Dinsiz olmaq da bir təriqətdir [1, s. 178].

Təsəvvüfə görə, cünunluq Allaha aşiqliyin ən yüksək dərəcəsidir. Bu səbəbdən fəzilət sayılır. "Babam heyrət, anamdır şübhə" fikri H.Cavidin fəlsəfəsidir. Dərviş Şeyx Sənana cavabında bunları deyir:

Şəriətdən, təriqətdən kənarım,
Həqiqət istərim, yalnız həqiqət.
Yetər artıq şəriət, ya təriqət.
Pərəstiş eyləməm heç bir kitabə.
Əvət, Quran, Zəbur, İncilü, Tevrat
Birər röya ki, zor təfsiri, heyhat!
Birər röya bütün əlvahi-aləm,
Birər əfsanə, cənnət, ya cəhənnəm [1, s. 172].

Bəs bu hansı həqiqətdir? Hər halda real həqiqət deyil. Sufinin çatdığı son mənzildir. Bu mütləq həqiqətdir! Dünyada bircə həqiqət var Allah! Bu mənada Məsud Əlioğlu yazır: "Haqq axtarıcısı yalnız müdriklikdən mürşidlik pilləsinə yüksələn Şeyx Sənan deyildir. Cəmiyyət içərisində divanə mütəfəkkir adı ilə şöhrət tapan Dərviş də yaradanla yaradılmışın vəhdətini sübut etmək məqsədi ilə həqiqət axtarışları yolunu tutmuş haqq elçisidir" [1, s. 62].

H.Cavid bu əsərdə tək təsəvvüf fəlsəfəsini əks etdirmirdi, eyni zamanda Şeyx Sənanın daxili aləmindəki dəyişikliklərdən bəhs açırdı, onun cəmiyyətə olan münasibətini göstərərək ictimai problemlərə də toxunurdu. Bu barədə A.Turan yazır: "Şeyx Sənan cəmiyyətə və insan mənəviyyatına təsəvvüf pəncərəsindən boylanan irfan sirlər ilə dop-dolu bir əsərdir, amma həm də təkcə bu deyil, "Şeyx Sənan"faciəsində də Cavid əfəndi Turanın, türk insanının və türk cəmiyyətinin problemləri ilə məşğuldur" [4, s. 46]. H.Cavidin "Şeyx Sənan" faciəsində insan təsəvvüf məqamlarından keçərək aləmi-lahuta yüksəlir. Bu da ondan irəli gəlir ki, H.Cavid mənən sadə, təvazökar, ancaq duyğuları düşüncələri, arzuları böyük olan bir insan olmuşdur.

**Nəticə.** "Şeyx Sənan" faciəsi Hüseyn Cavidin təsəvvüf fəlsəfəsinə dair dərin düşüncələrini əks etdirir və bir çox təfəkkür problemlərini ön plana çıxarır. Əsər, yalnız dini və mənəvi baxımdan deyil, həm də insanın özünü kəşf etməsi və daxilindəki çətinliklərlə mübarizəsini təsvir edən bir dramdır. Hüseyn Cavid, "Şeyx Sənan" əsərində təsəvvüf fəlsəfəsini və kamil insanın mübarizəsini çox yüksək bir səviyyəyə qaldırır. Təsəvvüfün bir əsas prinsipi olan "nəfsin tərbiyəsi" və "ilahi işıqla birləşmək" Şeyx Sənanın daxili mübarizələrində özünü göstərir. Cavidin əsərində kamil insan, yalnız bir mücərrəd ideya deyil, bir reallıq olaraq təqdim edilir. Lakin, Şeyx Sənan bu ideyaya tam çata bilmir, çünki içindəki öz-özünə qarşı çıxan təzyiqlər, dünya ilə olan əlaqələr və nəfsinin zəifliyi onun

qarşısına çıxır. Nəticə olaraq "Şeyx Sənan" faciəsi, təsəvvüf fəlsəfəsindəki kamil insan anlayışını və bu ideala çatmağın çətinliklərini əks etdirən dərin bir dramdır. Hüseyn Cavid, əsərində insanın mənəvi inkişafını və daxili mübarizələrini göstərərək, yalnız bir insanın deyil, bütövlükdə cəmiyyətin və zamanın böyük bir mənəvi sınaqdan keçdiyini nümayiş etdirir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əlioğlu M.Ə. Hüseyn Cavidin romantizmi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, 215 s.
2. Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr. 1975, 215 s.
3. Qarayev Y.V. Tənqid:problemlər, portretlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1976, 212 s.
4. Turan A. Hüseyin Cavid eserleri. İstanbul, 2013, 943 s.
5. https://www.huseyncavid.az/az.php?go=neshrler

**Keywords:** H.Javid, man, Sufism, "Sheikh Sanan" tragedy, tradition
**Ключевые слова:** Х.Джавид, человек, суфизм, трагедия «Шейх Санан», традиция

**Summary**

The process of human perfection in the Sufism system occupies a central place in the work of the great philosopher, poet and dramatist H. Javid. From his first pencil experiments to his masterpieces, almost all of them have a strong mystical light. When we consider Huseyn Javid's work, we see that he is a great dramatist, philosopher and thinker. He is the spreader of the ideology of Turkism, orthodoxy, unity, and freedom. Huseyn Javid created a miracle of humanity full of love and beauty with his works. Huseyn Javid's heroes aspire to rise, and this rise is due to spiritual purification. Sheikh Sanan, Khayyam, Prophet, etc. images meet the truth through this spiritual elevation. As we get closer to the truth, religious differences decrease. Purification of man's spirit, rising to the truth with divine love leads to the idea of unity of religions. Undoubtedly, the first source of human conception of all writers is life. The artist of each era takes the hero of the work, and at the same time, the human imagination from the life around him.

**Резюме**

Процесс совершенствования человека в системе суфизма занимает центральное место в творчестве великого философа, поэта и драматурга Х. Джавида. От его первых карандашных опытов до его шедевров почти все они имеют сильный мистический свет. Когда мы рассматриваем творчество Гусейна Джавида, мы видим, что он великий драматург, философ и мыслитель. Он является распространителем идеологии тюркизма, православия, единства и свободы. Гусейн Джавид создал своими произведениями чудо человечества, полное любви и красоты. Герои Гусейна Джавида стремятся возвыситься, и этот подъем обусловлен духовным очищением. Образы шейха Санана, Хайяма, Пророка и т. д. встречаются с истиной через это духовное возвышение. По мере приближения к истине религиозные различия уменьшаются. Очищение духа человека, восхождение к истине с божественной любовью приводит к идее единства религий. Несомненно, первым источником человеческого зачатия всех писателей является жизнь. Художник каждой эпохи берет героя произведения, а вместе с тем и человеческое воображение из окружающей его жизни.

**Rəyçi: dos. E.Vəliyeva**